

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 20 (21.172)

30 yanvar 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika



Yanvarın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qusar rayonunda "Şahdağ" qış-yay turizm kompleksində olublar.

Dövlətimizin başçısı və xanımı "Park Chalet Shahdag" otelinin açılışında iştirak ediblər.

Prezident İlham Əliyev otelin rəmzi açılışını bildirən lenti kəsdi.

"Park Chalet Shahdag" oteli Bakıdan 210 kilometr şimal-qərbdə yeganə alp üslublu dəbdəbəli məkandır. Əzəmətli dağlarla əhatə olunan otelin 164 eleqant qonaq otağı var.

Dövlətimizin başçısı və xanımı otelin nömrələrində yaradılan şəraitlə tanış oldular.

Otellə tanışlıqdan sonra Prezident İlham Əliyev kollektivlə görüşdü.

* * *

Yanvarın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Şahdağ" qış-yay turizm kompleksinin 1 nömrəli kanat yolunun və xizək enişinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısına məlumat verildi ki, kompleksdə inşası nəzərdə tutulan 9 kanat yolundan 7-si artıq hazırdır. Bundan başqa, ümumi uzunluğu 5860 metr olan 4 "xalça cığırı" və ümumi uzunluğu 12 min 430 metr olan 11 dağ xizək enişi inşa olunub. Həmçinin sahəsi 41,5 hektar olan enişlərin süni qarlaşdırma sistemi yaradılıb.

Dövlətimizin başçısı 1 nömrəli kanat yolunu işə saldı.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kanat yolunu sınaqdan keçirdilər.

## Ulu öndər Heydər Əliyev və müasir gənclik

***Naxçıvan Dövlət Universitetində 2 fevral – Gənclər Gününə həsr olunmuş "Ulu öndər Heydər Əliyev və müasir gənclik" mövzusunda elmi konfrans keçirilib.***

Konfransı giriş sözü ilə açan ali təhsil ocağının rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ümummilli lider Heydər Əliyevin gənclər siyasətinin ölkədə, o cümlədən Naxçıvan Muxtar Respublikasında uğurlu davamından, gənclərə hərtərəfli dövlət qayğısından danışıb. Saleh Məhərrəmov universitet tələbələrinin müxtəlif sahələrdə qazandığı uğurlardan da söhbət açaraq gəncləri bayram münasibətilə təbrik edib, onlara elm və təhsildə, müstəqil dövlətimizin inkişafı istiqamətindəki gələcək fəaliyyətlərində uğurlar arzulayıb.



Konfransda universitetin Tələbə-Gənclər Təşkilatının sədri Arzu Abdullayev "Ulu öndər Heydər Əliyev və müasir gənclik", Yeni Azərbaycan Partiyası universitet şəhərciyi ərazi ilk təşkilatının tələbə-gənclər birliyinin sədr müavini, magistrant Elgün Tağıyev "Gənclik Yeni Azərbaycan Partiyası sıralarında", Tələbə Elmi Cəmiyyətinin sədri, Sosial idarəetmə və hüquq fakültəsinin IV kurs tələbəsi Ramazan Abdullayev "Universitet gəncliyi və elmi mühit", Tələbə İdman Şurasının sədri, Pedaqoji fakültənin III kurs tələbəsi Nicat Allahverdiyev "Universitet idmanı inkişaf yolunda" mövzularında məruzələr ediblər. Məruzələrdə vurğulanıb ki, müstəqil Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyev tərəfindən 1997-ci ildə hər il fevralın 2-nin Gənclər Günü elan edilməsindən sonra bu əlamətdar gün hər il ölkədə geniş şəkildə qeyd olunur. Müasir gənclik dövlət qayğısından bəhrələnərək ictimai-siyasi, iqtisadi və digər sahələrdə müstəsna uğurlara imza atır. Məruzələrdə Vətənini, xalqını sevən, dünyagörüşlü, intellektual potensiala, qətiyyətli siyasi əqidəyə, milli-mənəvi dəyərlərə malik gənclərin yetişməsində Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatının, Tələbə Elmi Cəmiyyətinin və digər gənclər təşkilatlarının məqsədyönlü fəaliyyətlərindən bəhs olunub. Qeyd edilib ki, tələbə-gənclər bundan sonra da dövlət siyasətini yekdilliklə dəstəkləyərək təhsildə böyük nailiyyətlər qazanmağa, ictimai-siyasi proseslərdə fəal vətəndaşlıq mövqeyi sərgiləməyə davam edəcəklər.

Sonda 2 fevral – Gənclər Gününə həsr olunmuş slayd nümayiş olunub.

**Mina QASIMOVA**

*Muxtar respublikamızın ən böyük bölgələrindən biri olan Şərur rayonunun da quruculuq xəritəsi hərtərəfli dövlət qayğısı hesabına ildən-ilə genişlənir. Öncə onu qeyd edək ki, rayonun müxtəlif yaşayış məntəqələrində istifadəyə verilən yeni obyektlər həmin məntəqələrdə olan problemləri aradan qaldırmaqla kəndlərin simasını da dəyişdirib. Belə yaşayış məntəqələrindən biri Kürkənddir.*

## Kürkənddə inşa olunan obyektlər təhvilə hazırlanır

Ötən ilin mart ayında Kürkənddə start verilən kompleks quruculuq tədbirləri artıq başa çatdırılıb.

Burada kənd tam orta məktəbinin binasında yenidənqurma işləri aparılıb, kənd və xidmət mərkəzləri inşa olunub. Quruculuq tədbirlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin inşaatçıları həyata keçiriblər.

Şərur Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, yenidən qurulan məktəb binası 198 şagird yerlik olmaqla, 3 mərtəbədən ibarətdir. Təhsil ocağının yeni binasında geniş və işıqlı sinif otaqları, kitabxana, idman zalı, kompüter və elektron lövhəli siniflər, laboratoriya müəllim və şagirdlərin ixtiyarına veriləcək. Qış mövsümündə fasiləsiz tədris prosesini təmin etmək məqsədilə məktəb binası üçün fərdi qazanxana inşa olunub.

Yaxınlıqda inşa edilmiş kənd mərkəzi 2 mərtəbədən ibarətdir. Burada kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, kitabxana, YAP ərazi ilk təşkilatı, poçt bölməsi və digər qurumlar fəaliyyət göstərəcək.

Yeni xidmət mərkəzi də kürkəndlilərə dövlətimizin növbəti qayğısıdır.

Kompleks quruculuq tədbirləri çərçivəsində Şərur şəhərindən kəndin mərkəzinədək olan 4,5 kilometrlik yola qara örtük salınıb. Kənddə yeni ATS qurulub, mövcud rabitə xətləri yenilənib, 2980 metr uzunluğunda optik bağlantı kabeli, 1300 metr uzunluğunda yeraltı kabel, 8850 metr uzunluğunda müxtəlif yerüstü kabel çəkilib.

Elektrik xətlərində təmir işləri aparılıb, 2500 metr uzunluğunda yeni elektrik xətti çəkilib, 38 elektrik dirəyi dəyişdirilib.

Yeni tikililərin yerləşdiyi ərazi abadlaşdırılıb, yaşıllıq zolaqları, gülkarlıqlar salınıb. Hər üç obyekt təhvilə hazırlanır.

## Muxtar respublikaya gələn turistlərin sayı artıb




***Muxtar respublikamızda davam edən sürətli sosial-iqtisadi inkişaf turizm sahəsində də özünü göstərməkdədir. Regiona turist axınının artması burada iqtisadiyyatın digər sahələrinin də inkişaf etdirilməsinə təsir göstərməklə yanaşı, eyni zamanda səyahətçilərin Naxçıvanı daha yaxından tanımalarına imkan yaradır.***

2014-cü ilin yekunlarına görə, muxtar respublikamıza ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 378 min 102 nəfər turist gəlib. Muxtar respublikaya səfər edən turistlərin səyahət motivlərinə uyğun olaraq, onların asudə vaxtlarının, istirahət, əyləncə və müalicəsinin təşkil olunması, tranzit və işgüzar məqsədli turistlər üçün zəruri infrastrukturun yaradılması Naxçıvana səyahət edən turistlərin sayının artmasına səbəb olub. Naxçıvanın turizm ehtiyatlarının daha çox turizm dövriyyəsinə cəlb olunması, servis sektorunun peşəkarlığının artması, Naxçıvan şəhərində və bölgələrdə istirahət, asudə vaxt mərkəzlərinin yaradılması, müasir standartlara cavab verən restoran və yeməkxana şəbəkəsinin təşkili turizmin inkişafına müsbət təsir edən amillərdəndir.

Hazırda Naxçıvana səfər edən əcnəbi turistlər arasında Türkiyə, İran, Rusiya, Ukrayna, Qazaxıstan, Gürcüstan, Avropa Birliyi ölkələri, Amerika Birləşmiş Ştatları, Baltikyanı ölkələr, Cənubi Koreya, Çindən gələn turistlər üstünlük təşkil edir. Xarici ölkələrdən gəlmiş turistlər burada işgüzar görüşlər keçirməyə, muxtar respublika ərazisindəki görməli təbiət guşələri, tarixi abidələr və muzeylərlə tanış olmağa, ziyarətlərini yerinə yetirməyə, təbii və klinik üsullarla müalicə olunmağa daha çox maraq göstərirlər. Naxçıvanda qış turizmi üçün də mövcud olan iqlim və relyef şəraiti burada turizmin bütün mövsümlərdə inkişafı üçün yaxşı imkanlar yaradır.

## Ötən il 536,5 hektar sahədə yaşıllaşdırma işləri aparılıb

***Təbiətdə harmoniya pozulanda insanların yaşayışı, sağlamlığı da təhlükə qarşısında qalır. Ağaclar seyrəlir, bulaqların suyu çəkilir, göllər dayazlaşır, torpaq eroziyaya uğrayır. Ona görə də aqillərimiz həmişə deyiblər ki, təbiət də insan kimi qayğı tələb edir, bizdən isti münasibət gözləyir.***

Ağacı, yaşıllığı, meşəsi olan yaşayış məntəqələrindəki insanlar həmişə sağlam olur, uzun ömür sürürlər. Yaşıllıq çox olan yerlərdə ölüm halları da az müşahidə olunur. "Ağacı çox olan yerin məzarı az olur", – deyiblər. Müdriklər təbiətə, yaşıllıqlara, meşələrə, bulaqlara, çaylara həmişə təbabət sahəsi, şəfa mənbəyi kimi baxıblar.

Təbiət insanın köməyi sayəsində daha da gözəlləşir, zənginləşir. İnsanlar da təbiətin misilsiz nemətlərindən daim faydalanırlar. Naxçıvan Muxtar Respublikasında bu sahədə həyata keçirilən tədbirlər ekoloji tarazlığın pozulmasının qarşısının alınması, təbii sərvətlərimizin qorunub saxlanması kimi ümumbəşəri əhəmiyyət daşıyır.



Ötən il muxtar respublikada yaşıllaşdırma sahəsində də xeyli iş görülüb.

Yaşıllaşdırma tədbirlərinin genişləndirilməsi üçün müxtəlif çeşiddə əkin materiallarının yetişdirilməsi davam etdirilib. Naxçıvan Muxtar Respublikasının Ordubad, Şahbuz və Babək rayonlarının inzibati ərazilərində yeni tingçilik təsərrüfatları yaradılıb.

2014-cü ilin yaz-payız əkini mövsümündə Naxçıvan şəhərinin və bütün rayonların inzibati ərazilərində yeni tingçilik təsərrüfatları yaradılıb, meşə fondu torpaqlarında, magistral avtomobil yollarının ətrafında, yarımsəhra və səhralaşmaya meyilli ərazilərdə 536,5 hektar sahədə yaşıllaşdırma tədbirləri həyata keçirilib. Bu zaman 440 min 700 ədəddən artıq tingdən istifadə edilib.

**Xəbərlər şöbəsi**

# Rahat yaşayış şəraiti olan mənzil sağlam həyat deməkdir

## *Budur dövlətimizin insan amilinə verdiyi dəyər*

*Rahat yaşayışın təmin edilməsi hər kəsin arzusu olduğu kimi, azad, demokratik, vətəndaşlarına dəyər verilən cəmiyyət və ölkələrdə də həyata keçirilən sosial tədbirlərin əsas tərkib hissəsidir. Bu rahatlıq təkcə sabitlik, dinclik mənasında deyil, həm də yaşamaq üçün müasir tələblərə uyğun şəraitin yaradılması anlamında qəbul edilməlidir. Əlbəttə, sabitlik olmadan yaşamaq üçün normal şəraitin yaradılmasının mümkünlüyünü düşünmək sadəlövhlük olardı. Ancaq istənilən halda insanlar üçün bu tərəflərin hər ikisinin olması vacibdir.*





Hər bir insan üçün həyatda ən böyük arzulardan biri gözəl, fərdi mənzilə sahib olmaqdır. Doğrudur, bazar iqtisadiyyatının “İşlə, qazan, sahib ol!” ideologiyası yüz illər boyu özünü doğrultsa da, kütləvilik baxımından buna nail olmaq hələ ki mümkün olmayıb. Buna görə də bu gün dünyanın ən inkişaf etmiş ölkələrində belə, evsizlik problemi yaşayan kifayət qədər böyük kütlələr var. Məhz bu nöqteyi-nəzərdən baxsaq, ölkəmizdə bu sahədə vəziyyətin qənaətbəxş olduğunu söyləmək mümkündür. Məsələnin mahiyyətinə varmaq üçün muxtar respublikanın rayon mərkəzlərində, eləcə də paytaxt Naxçıvan şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin məğzinə bir daha diqqət yetirək. Qeyd etməliyik ki, bu gün mərkəzi yaşayış yerlərində mövcud olan binaların böyük bir hissəsi sovet dövründə tikilib. Bu binalar içərisində istismar dövrünü başa vurmuş binalar da var, mövcudluğunu hələ uzun illər sürdürəcək binalar da az deyil. Nəzər yetirsək, görərik ki, köhnə yaşayış binalarının fundamental olaraq əsaslı şəkildə yenidən qurulması, istismar yararlılığını özündə saxlayan binaların isə təmir və bərpa olunaraq müasir vəziyyətə gətirilməsi diqqət mərkəzində saxlanılır. Belə binaların əsaslı şəkildə yenidən qurulması zamanı mənzillərin sahəsinin genişləndirilməsi və ya mühəndis-texniki imkanları nəzərə alınaraq digər mərtəbələrin əlavə olunması da insanların rahat yaşamasına hesablanıb. Son illərdə Naxçıvanda xeyli sayda ailələr belə rahat və geniş mənzillərə sahib olublar. Və bütün bunlar üçün onlardan heç bir xərc tələb edilməyib. Vətəndaşlara məxsus mənzillərin dövlət tərəfindən əsaslı şəkildə yenidən qurulması və ya təmiri (fövqəladə hallar istisna olmaqla) dünya təcrübəsində çox nadir tədbirlərdəndir. Bundan əlavə, cəmiyyətin xüsusi imtiyazlı təbəqələrinin nümayəndələrinə davamlı olaraq fərdi evlərin tikilməsi insan amilinə verilən dəyərlə yanaşı, həm də dövlətimizin gücünün göstəricisidir. Bütün bu tərəflərinə görə muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların mərkəzində insan amilinin dayandığını kiməsə sübut etməyə ehtiyac yoxdur. Əhalinin rahat yaşayışının təmin olunması, xüsusilə insanların mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər bu gün də davam etdirilir. Görülən işlərin bir qismini də yeni yaşayış binalarının tikilərək istifadəyə verilməsi təşkil edir. Bir həftə bundan əvvəl Naxçıvan şəhərinin Kazım Talıblı küçəsində 20 nömrəli yaşayış binasının istifadəyə verilməsi də dediklərimizə əyani misaldır.

Bu yaşayış binası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Binada 12 mənzil yerləşir. Onlardan 9-u ikiotaqlı, 3-ü isə üçotaqlıdır. Mənzillərin ümumi yaşayış sahəsi 660 kvadratmetrdir. Bina zəruri kommunikasiya sistemləri ilə təchiz olunub, yeni su və kanalizasiya xəttinə qoşulub, mənzillərin hər birində fərdi istilik sistemi quraşdırılıb, fiber-optik xətt çəkilib. Bu yaşayış binasında mənzil sahibi olanlar şəhərin Kalbalıxan və Cəlil Məmmədquluzadə küçələrində fərdi evləri plana düşən ailələrdir. Biz də bu günlərdə həmin ailələrin bəzi nümayəndələri ilə görüşüb söhbət etdik.



*Yeni mənzillərlə təmin olunan ailələrin əvvəlki yaşayış şəraiti belə idi*

Bina sakini Vilayət Qasımov bildirir ki, Kalbalıxan küçəsində yerləşən evimiz bərbad vəziyyətdə idi. Deyir ki, o, 1956-cı ildə həmin evdə dünyaya göz açıb. Ancaq evin köhnə tikili olması daim onları narahat edirdi. Əslində, köhnə evin təmiri də mümkün deyildi. Çünki kiçik otaqlardan ibarət bu kiçik tikili üçün zəhmət çəkməyə də dəymazdı. Ancaq indi yeni binada hər bir şəraiti olan, rahat, geniş otaqlar hər birimizin ürəyincədir. Bir daha ailəmiz adından dövlətimizə minnətdarlığımızı bildirirəm.

Kərim və Faiq Novruzov qardaşları da yeni binada mənzil sahibi olan sakinlərdəndir. Kərim ikiotaqlı, Faiq Novruzov isə üçotaqlı mənzilə köçməsinin sevincini yaşayır. Hər ikisi onlara bu sevinci bəxş edən dövlətimizə minnətdarlığını bildirir. Ataları Bəşir kişi deyir ki, köhnə evlərinin yerləşdiyi ərazinin qeyri-mütənasibliyi, şəraitsizlik onları hər zaman narahat edib: “Təsəvvür edin ki, hətta qız köçürəndə, oğul evləndirəndə belə, toyu digər övladlarımın yaşadığı evlərdə etmişik. Açığını desək, o ərazilərdəki həyət evlərini satmaq da mümkün olmayıb. Buna görə də orada yaşayanların yeni mənzillərlə təmin edilməsi hər birimizin hədsiz sevincinə səbəb olub. Bir daha dövlətimizə minnətdarlığımızı bildiririk”.

Həmin küçədə ötən il istifadəyə verilən 18 nömrəli yaşayış binası da 3 mərtəbə və 12 mənzildən ibarətdir. Burada mənzillə təmin olunan Vahid Qasımov yaşadıqları köhnə evin problemlərindən, oradakı şəraitsizlikdən danışmaqla bərabər, yeni mənzillərinin onlara böyük sevinc bəxş etdiyini söyləməyi də unutmur. Muxtar respublikada bu işlərin həyata keçirilməsində zəhməti olan hər kəsə minnətdarlıq etməyi də özünə borc bilir.

Gənc ailə başçısı Asiman Həsənov yeni ikiotaqlı mənzillərinin onlara böyük sevinc bəxş etdiyini söyləyir. Belə bir mənzilin hər kəs üçün arzuolunan olduğunu deyən Asiman bunu dövlətimizin iqtisadi gücü ilə əlaqələndirir. Arzu edir ki, bütün gənc ailələr belə rahat və gözəl mənzillərə sahib olsunlar.

Qeyd edək ki, Kazım Talıblı küçəsindəki 1 nömrəli yaşayış binasında da əsaslı təmir işləri aparılıb. İki mərtəbə və 12 mənzildən ibarət olan binanın dəhlizi, fasadı, dam örtüyü, qapı və pəncərələri yenilənib, mərkəzi antena sistemi quraşdırılıb, binaların həyətində geniş abadlıq işləri görülüb.

*Bəli, budur dövlətimizin insan amilinə verdiyi dəyər!*

✍ **Səbuhi HƏSƏNOV**




*Naxçıvan məhsulları xarici bazarda*

# “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyətinin ixrac potensialı artıb

***“Mineral suların təbii muzeyi” adlandırılan Naxçıvan Muxtar Respublikasında 200-dən çox mineral su mənbələri mövcuddur. Onlardan biri də Şahbuz rayonunun Badamlı qəsəbəsi ərazisində çağlayan eyniadlı mineral sudur ki, bu təbiət möcüzəsi bir çox xüsusiyyətləri ilə qiymətlidir. Əvəzsiz süfrə suyu olan “Badamlı” həm də müalicəvi əhəmiyyətə malikdir. Belə ki, ateroskleroz, ürək, xərçəng, diabet, mədə yarası, bronxial-astma, pnevmoniya, bruselloz xəstəlikləri, eyni zamanda immunitetin zəifləməsi, infeksiyalara yoluxma, müxtəlif orqanların, o cümlədən dərinin iltihabı zamanı müalicə məqsədilə istifadə edilir.***

“Badamlı” mineral bulağı ötən əsrin ortalarında aşkar edilmişdir. 1945-1947-ci illərdə geologiya-mineralogiya elmləri doktoru Əziz Əsgərovun rəhbərliyi altında bu ərazidə elmi-tədqiqat işləri aparılaraq müxtəlif kimyəvi tərkibli mineral sular sırasında 5 nömrəli bulaqdan istifadə olunması məqsədəuyğun hesab edilmişdir. 1947-ci ildə burada kiçik müəssisə yaradılaraq ilk dəfə əl üsulu ilə cəmi 30-40 litr su istehsalına başlanılmışdır. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə müəssisənin fəaliyyəti genişləndirilmiş, Almaniya və Çexoslovakiya istehsalı olan yeni texnoloji avadanlıqlar tətbiq olunmaqla istehsal gücü daha da artırılmışdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə baş verən hadisələr, iqtisadi tənəzzül bu müəssisənin də fəaliyyətinin dayanmasına səbəb olmuşdur. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra yaradılan sabitlik və əldə olunan iqtisadi inkişaf bütün sahələr kimi, sahibkarlıq fəaliyyətinin də genişləndirilməsinə böyük imkanlar açmışdır. Muxtar respublikada sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması “Badamlı” mineral suyunun da əvvəlki şöhrətini özünə qaytarmış, 2004-cü ildə özəlləşdirilən müəssisədə keyfiyyətli məhsul istehsalına başlanılmışdır. “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyəti müəssisəyə bazar iqtisadiyyatının tələblərinə uyğun yeni həyat vermişdir.

Naxçıvan şəhərində 2,1 hektar ərazini əhatə edən və ümumi sahəsi 9590, istehsal sahəsi isə 3600 kvadratmetr olan yeni istehsal müəssisəsi ölkə başçısı cənab İlham Əliyevin 2009-cu ilin 3-4 avqust tarixlərində muxtar respublikaya səfəri zamanı istifadəyə verilmişdir. Burada ikimərtəbəli inzibati bina tikilmiş, yeməkxana, istehsal sahəsi, anbar, karbon qazı və kompressor stansiyası yaradılmışdır. Müasir texnoloji avadanlıqlarla təchiz olunmuş zavod daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsul istehsal edərək rəqabətqabiliyyətli müəssisəyə çevrilmişdir.

Mineral suyun butulkalara doldurulması üçün istehsal sahəsində Fransanın “SİDEL” şirkətinin istehsalı olan avadanlıqlar quraşdırılmışdır. Müəssisənin sexlərində müxtəlifhəcmli plastik və şüşə butulkalarda olmaqla, 12 çeşiddə mineral su istehsal olunur. Plastik butulkalar və qapaqlar üçün 2011-ci ilin fevral ayında istifadəyə verilmiş “Gəmiqaya Plastmas Kapsul və Qapaq” Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsullarından istifadə edilir.

Zavodda məhsulun keyfiyyətinə ciddi nəzarət olunur. Burada Almaniya istehsalı olan müasir avadanlıqlarla təmin edilmiş xüsusi laboratoriya qurulmuşdur. Laboratoriyada suyun minerallıq dərəcəsi, qələviliyi, ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bunun nəticəsidir ki, “Badamlı” mineral suyu keçirilən beynəlxalq sərgilərdə yüksək qiymətləndirilir. Məhsulun keyfiyyətinin yüksək olması müəssisəni alıcı problemi ilə üzləşdirmir. Zavodda tələbata uyğun olaraq, 0,5, 1, 1,5 litrlik plastmas butulkalarda qazlı və qazsız, 0,3, 0,6 litrlik şüşə butulkalarda qazlı və qazsız, 5 və 19 litrlik plastmas taralarda qazsız olmaqla, ümumilikdə, ötən il 4 milyon 340 min ədəd yuxarıda göstərilən taralarda su istehsal edilmiş, 1 milyon 172 min ədədi muxtar respublika ərazisində, 3 milyon 38 min ədədi Bakı şəhərində və ölkəmizin müxtəlif bölgələrində satışa çıxarılmışdır. “Badamlı” mineral süfrə suyunun muxtar respublika ərazisində satışı “Gəmiqaya Bərəkət Bazarlama” MMC, Bakı şəhərində və ölkəmizin digər regionlarında isə “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının Bakı Satış Mərkəzi vasitəsilə həyata keçirilir. İstehsal olunan məhsulun ticarət obyektlərinə vaxtında çatdırılması da diqqət mərkəzində saxlanılmış, müəssisəyə Almaniya istehsalı olan “Mercedes-Benz Axor” markalı yük avtomobilləri alınmışdır. Həmçinin Avropa ölkələrində və digər xarici ölkələrdə bu əvəzsiz təbii sərvətimizin satışını təmin etmək üçün möhkəm baza yaradılmışdır.

“Gəmiqaya Mineral Sular” MMC-də bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sistemi və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO-22000 və İSO-9001 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılmışdır. Bu da “Badamlı” mineral süfrə suyunun yüksəkkeyfiyyətli istehsalının göstəricisi və dünya bazarına girişinin təminatıdır. “Badamlı” mineral suyunun xarici ölkələrə ixrac olunması ötən ildə də diqqət mərkəzində saxlanılmış, bağlanmış müqaviləyə əsasən, 130 min ədəd mineral suyun Rusiya Federasiyasına göndərilməsi təmin edilmişdir. Qeyd edək ki, “Gəmiqaya Mineral Sular” MMC-nin iqtisadi əlaqələri daha da genişləndirilmiş, ötən il istehsal edilən “Badamlı” mineral süfrə suyunun 27 faizi muxtar respublika ərazisində satışa çıxarılmış, 70 faizi Bakı şəhərinə və müxtəlif regionlara, 3 faizi isə Rusiya Federasiyasına ixrac olunmuşdur. Mineral suyun digər xarici ölkələrə ixrac olunması istiqamətində işlər davam etdirilir.

Onu da qeyd edək ki, bu qiymətli təbii sərvətimizin mineral sular ixracatçısı olan Rusiya bazarına çıxarılması biznes əlaqələrinin genişləndirilməsi ilə bağlıdırsa, “Badamlı” təbii mineral süfrə suyunun xarici bazarda özünəməxsus yer tutması və möhkəmlənməsi onun dünya standartlarına uyğun yüksəkkeyfiyyətli istehsalı və müalicəvi əhəmiyyəti ilə bağlıdır. Elə buradaca bir haşiyə çıxmaq istəyirəm: Rusiyada yaşayan yaxınlarımla videobağlantı vasitəsilə danışarkən Moskva bazarında satışa çıxarılan yüzlərlə mineral sular arasında Naxçıvan məhsulu kimi “Badamlı”nı görməkdən qürur hissi keçirdiklərini bildirdilər. Söhbətimizə qoşulan iş yoldaşları Viktor İvanov, Vladimir Şuvalov, Lidiya Kardovatova, Aleksandr Medvedyev və başqaları satışa çıxarılan “Badamlı” mineral süfrə suyunun hələ sovetlər dönəmində alıcısı olduqlarını, hazırda isə bu sudan həkim məsləhəti ilə müalicə məqsədilə istifadə etdiklərini və yaxşı nəticə verdiyini bildirdilər. Onu da qeyd etdilər ki, “Badamlı”nın Rusiya bazarına çıxarılması bugünkü iqtisadi əlaqələrin inkişafının nəticəsidir.

✍ **Kərəm HƏSƏNOV**

# Ümumtəhsil məktəblərində kurikulumların tətbiqi yolları müzakirə olunub

***Son illər Naxçıvan Müəllimlər İnstitutunda yeni təhsil islahatının qarşıya qoyduğu problemlərin həlli və təlim texnologiyalarının tədrisdə tətbiqi ilə bağlı kurslar təşkil olunur, ali təhsil müəssisəsi tərəfindən ümumtəhsil məktəblərində pedaqoji kollektivlərlə görüşlər keçirilir, müzakirələr aparılır, seminar-treninqlər təşkil olunur.***

Bu tədbirlərin davamı kimi, Naxçıvan Müəllimlər İnstitutu Şərur Rayon Təhsil Şöbəsi ilə birlikdə İbadulla və Tənənəm kənd tam orta məktəblərində “Ümumtəhsil məktəblərində kurikulumların tətbiqi yolları” mövzusunda seminar-treninqlər keçirmişdir.

Hər iki tam orta məktəbdə keçirilən tədbiri Şərur Rayon Təhsil Şöbəsinin müdiri Zaur Həsənov açaraq qeyd etmişdir ki, Naxçıvan Müəllimlər İnstitutunun məktəblərimizlə sıx əlaqəsi son illər öz müsbət nəticələrini verməkdədir. Yeni təhsil islahatının həyata keçirilməsində qarşıya çıxan problemlərin aradan qaldırılmasında Müəllimlər İnstitutunun köməkliyini daim görürük. Bütün bunların nəticəsidir ki, bu gün məktəblərimizdə təhsilin kurikulum yolu ilə həyata keçirilməsində müəyyən irəliləyişlər var və bu işi birlikdə daha da inkişaf etdirməyə çalışırıq.

Seminar-treninqdə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli “Yeni təhsil islahatı – kurikulumun həyata keçirilməsi yolları” mövzusunda məruzə ilə çıxış etmişdir.

Bildirilmişdir ki, bu gün təhsilin düzgün istiqamətdə inkişaf etdirilməsi günümüzün aktual problemlərindəndir. Çünki bugünkü dünyada hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirilməsi, ağıla, təfəkkürün inkişaf etdirilməsinə üstünlük verilməsi əsas tələb kimi cəmiyyəti düşündürən məsələyə çevrilmişdir. Ötən illərin təcrübələri ilə müasir tələbləri qarşılaşdırdıqda təlim texnologiyalarının tətbiqi və yeni yanaşma üsullarının, nəzəriyyənin praktikada dərin tətbiqinin daha vacib olduğunu görürük. Bu mənada institutumuzda yaradılan Kurikulum Mərkəzində bu sahəyə daha çox diqqət yetiririk. Burada yeni təhsil islahatının prinsipləri, metodları və yolları hərtərəfli araşdırılır. Elə bunun nəticəsidir ki, kurikulumun tətbiqinin günün tələbləri səviyyəsində həyata keçirilməsi üçün mərkəz tərəfindən çox sayda elektron materiallar hazırlanıb muxtar respublikanın ümumtəhsil məktəblərinə çatdırılmışdır.

Qeyd olunmuşdur ki, bu gün institutda elektron lövhələrdən istifadə qaydalarını yaxşı bilən mütəxəssislər yetişmişdir. Onlar tərəfindən keçilən kurslarda ümumtəhsil məktəblərinin müəllimlərinə elektron lövhələrdə işləməyin təcrübi yolları öyrədilir.

Sonra Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent Həsənəli Eyvazlı və elmi-metodik işlər üzrə prorektoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Yaqub Məmmədov çıxış etmişlər.

Tədbirlərdə müəllimləri maraqlandıran suallar cavablandırılmış, fikir mübadiləsi aparılmışdır.

Sonda Şərur Rayon Təhsil Şöbəsinə, İbadulla və Tənənəm kənd tam orta məktəblərinə elmi-metodik və bədii ədəbiyyatlar, o cümlədən 2300 səhifədən ibarət elektron materiallar verilmişdir.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

***Mənbələr tarixin yaddaşı, aid olduğu dövrün parlaq salnaməsidir. Bu salnamənin hər səhifəsində tarixi fakt və gerçəkliklər, ictimai-siyasi hadisələr öz əksini tapır. Odur ki, mənbələri arayıb-axtarmaq, üzə çıxarmaq, onları xarakterinə, forma və məzmununa, həcminə, əhatə dairəsinə görə qruplaşdırıb təhlil etmək dilçilik elminin qarşısında duran vacib məsələlərdən biridir. Ümumi onomastikamız üçün xarakterik olan belə mənbə və qaynaqlar Naxçıvan ərazisindəki onomastik vahidlərin də araşdırılıb üzə çıxarılmasında mühüm əhəmiyyət kəsb edir.***

# Müxtəlif mənbələrdə Naxçıvan toponimləri

1924-1936-cı illərə aid mənbələr müxtəlifliyi ilə yanaşı, toponimləri əks etdirmək, onları qoruyub saxlamaq baxımından da diqqəti cəlb edir. Belə mənbələrdən biri Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivindəki sənədlərdir. Bu sənədlərdən aydın olur ki, 1920-ci ilin rus işğalı ilkin olaraq tarixi ərazimiz olan Zəngəzuru əlimizdən almış, Azərbaycanın tərkib hissəsi olan Naxçıvan doğma ərazidən ayrı düşmüş, milli adlarımız erməni millətçilərinin əlinə keçmişdir. 1924-cü ildə regionda 3 qəza, 12 dairə təşkil olunmuş, 1925-ci ildə qəzalar ləğv edilmiş, dairələrin sayı 8-ə endirilmişdir. Bütün bu məsələlər Naxçıvan ərazisindəki toponimlərin işlənmə arealına da öz mənfi təsirini göstərmiş, Sovet hakimiyyətinin ilk illərindən milli adlarımıza qarşı qeyri-obyektiv münasibət bəslənilmişdir. Belə ki, 1918-1920-ci illərlə müqayisədə 1925-ci ildə bəzi kənd adları dəyişdirilmiş və yeni qəzalar üzrə bölgü aparılmışdır. Həmin ildə aparılan rayonlaşma siyasəti nəticəsində Baş Noraşen rayonuna 53, Qıvraq rayonuna 19, Cəhri rayonuna 14, Tumbul rayonuna 30, Nərimanov rayonuna 30, Əbrəqunus rayonuna 29, Culfa rayonuna 4, Ordubad rayonuna 20, Parağa rayonuna 15, Aza rayonuna 11 yaşayış məntəqəsi daxil edilmişdir. Bu rayonlara daxil olan Əskikənd, Bulaqbaşı, Salahabad, Billəva, Vayxır, Parçı, Yalqızağac, Lizbirt, Sürəməlik, Naxışnərgiz, Nərimanabad, Qaraboya, Qızıl Qışlaq, Zərnətün, Xınzirək, Nurs Məzrəsi, Haçaparaq, Zoğala, Dizə, Dərgəməlik, Tilləк, Der, Sumbatandizə, Düylündizə və digər kəndlərin bir qismi tədricən ləğv olunmuş, digərlərinin isə adları dəyişdirilmişdir.

Mənbələr sübut edir ki, 1927-ci ildə Naxçıvan MSSR-də 8 dairə (rayon), 227 yaşayış məntəqəsi olmuş, kəndlər dairələr üzrə aşağıdakı sayda bölünmüşdür: Baş Noraşen (55), Qıvraq (23), Nərimanov (35), Tumbul (35), Əbrəqunus (30), Culfa (13), Parağa (15), Ordubad (21). Həmin ildən sonra da Naxçıvan MSSR-in yaşayış məntəqələrinin sayında dəyişiklik edilmiş, Zaqafqaziya MİK-nın 1929-cu il 18 fevral tarixli qərarı ilə Şərur-Dərələyəz qəzası ləğv olunmuş, qəzanın Dərələyəz hissəsi bütünlüklə, həmçinin Naxçıvan MSSR-in 9 kəndi – Şərur dairəsinin Qurdqulaq, Xaçik, Horadiz, Şahbuz nahiyəsinin Oğbin, Sultanbəy, Ağxaç, Almalı, İtqıran, Ordubad dairəsinin Qarçivan kəndləri, habelə Kilit kəndinin əkin sahələri və otlaqları Ermənistana verilmişdir. Nəticədə, çox böyük ərazimiz erməni millətçilərinin əlinə keçmiş, həmin ərazilərdəki yüzlərlə milli adlarımız dəyişdirilmişdir.

Muxtariyyətin ilk illərində Azərbaycan elmi və mədəniyyəti tarixinə dair yazılmış əsərlərdə, təşkil olunan elmi cəmiyyətlərin sənədlərində tədqiqat üçün vacib sayılan yüzlərlə yer, şəxs, tayfa adları qeydə alınmışdır. Bu baxımdan 1926-1927-ci illərdə Naxçıvanın yer-yurd adları haqqında geniş məlumat verən mənbələr sırasına “Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti”nin xətti ilə Naxçıvana gəlmiş V.V.Sısoyevin hesabat məruzələri diqqəti cəlb edir. Müəllif həmin hesabatda Atabəy məqbərəsi, Naxçıvan qalası, Xuda Divan qəbiristanlığı, Qarabağlar, Qarabağlar türbəsi, Dəli pir, Şahtaxtı, Culfa, Əbrəqunus, Nüsnüs, Yuxarı Əndəmic, Aşağı Əndəmic, Yuxarı Əylis, Aşağı Əylis, Düylün, Dəstə, Çənnəb, Üstüpü, Məzrə, Pəzməri, Kələki, Unus, Dırnıs, Vənənd, Dehsər, Xanağa, Xaraba Gilan, Aşağı Aza, Yuxarı Aza, Dizə və sair kimi coğrafi obyekt adları, kəndlərdəki tikililər, qala, pir, məqbərə, Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məqbərəsi və sair haqqında maraqlı məlumat vermiş, ancaq özündən əvvəlki bəzi tədqiqatçıların təsirindən qurtara bilməmiş, faktların bir qisminə erməniparəst mövqedən yanaşmışdır.

1925-1930-cu illərdə Naxçıvanın yer-yurd adlarının əks olunduğu mənbələrdən biri də “Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti”nin 1925-ci ildə yaradılmış Naxçıvan şöbəsinin sənədləridir. Ədəbiyyatşünas alim Fərman Xəlilov tərəfindən kitab şəklində nəşr edilmiş həmin sənədlərdən aydın olur ki, cəmiyyətin xətti ilə ayrı-ayrı yerlərə elmi səfərlər təşkil edilmiş, bölgənin maddi-mədəniyyət abidələri, tarixi, el ədəbiyyatı və etnoqrafiyasına dair məlumat və materiallar toplanılmış, ərazinin tarixi və abidələri, şəhər və kəndlərinin coğrafi mövqeyi, etnik tərkibi, arxeoloji materialları haqqında məlumat toplanılıb müzakirə edilmişdir. Cəmiyyətin sənədlərində indiki Şərur və Kəngərli rayonları ərazisində: Hortikən, Duvəğğüz bərə, Heybət arxı, Gobut, Keçi bulağı, Ding arx, Kərpicli, Qazılı, Cilovxanlı (Yengicə kəndi), Oruş xanəni, Ocaq təpəsi (Zeyvə-Düdəngə kəndi), Xarabalar, Naxırca dədək (Xanlıqlar kəndi), Şəbih, Şevi savağı, Sənır, Təpəli yer (Parçı kəndi), Qurd dərəsi, Devilləк (Cinni yurdu), Kələnşahı, Deynular, Tatlar, Qasıxan, Kəngərli (Püsyan kəndi), Qarapirim, Sarı torpaq, Şərdatan, Qaraqannıx (Qıvraq qəsəbəsi), Dilbər, Axvay, Dərəsaz, Qorux (Yurdçu kəndi), Asnı, Bilici, Qəbə dağı, Damlama, Dibək, Susuz, Qaravul, Beşbarmaq, Şəmdin, Bəzəkli, Süzgünlər, Yolğun dərə, Sarıburun, Duzsaz, Dərəsaz, Xudabəxş dərəsi (Qarabağlar kəndi), Qaraoyş, Ar ağılı, Qoşa ağıl, Daş ağıl, Qırmızı daş, Qazan yaylağı (Çalxanqala kəndi), İydəli pir, Şah bağı, Ağ bulaq, Qala yeri, Şah arxı (Şahtaxtı kəndi) kimi dağ, yaylaq, yurd və kövşən adları qeydə alınmış, Ordubad şəhərinin “Kürdətalı” məhəlləsi, Qoç qəbiristanlığı, Çardağ qəbiristanlığı, “Sərşəhər” məhəlləsi, Anabad kəndi, Kilit kəndi, Kilit mağarası, Nüsnüs kəndi, Çeheltən piri, Danaqırt kəndi, Vənənd, Biləv və sair haqqında geniş məlumat verilmişdir.

Bununla bərabər, həmin sənədlərdə Atabəylər, Biləkli Cığatay, Cığallı, Hacılı, Kəngərli, Qaraqoyunlular, Nadirxanlı, Oğuz, Sadıxlı, Talıbxanlı, Türk və sair kimi tayfa, xalq, qəbilə adları, Alışar, Aza, Baş Noraşen, Böyükdüz, Camaldın, Cəhri, Culfa, Daşarx, Dəmirçi, Düdəngə, Ərəb Yengicə, Ərəfsə, Gilan, Xanlıqlar, Xıncov, Keçəl təpə, Keştaz, Qalacıq məhəlləsi, Qalacıq yeri, Qarabağlar, Qarahəsənli, Qıvraq, Milax, Nehrəm, Nəriman dairəsi, Nürgüt, Ordubad, Parçı, Püsyan, Şahtaxtı, Şərur, Təzəkənd, Təbriz, Tənənəm, Tirkeş, Ulya Noraşen, Yaycı, Yengicə, Yurdçu və digər bu kimi mahal, şəhər, qəsəbə, kənd, məhəllə adları öz əksini tapmışdır.

Bölgənin toponimik sistemi haqqında xarakterik məlumat verən mənbələr içərisində Naxçıvan Mərkəzi Statistika İdarəsi tərəfindən 1926-cı ilin yanvar ayında hazırlanmış “Bülleten” də mühüm yer tutur. “Bülleten”dən aydın olur ki, həmin il Baş Noraşen rayonu 54, Qıvraq rayonu 19, Cəhri rayonu 14, Tumbul rayonu 30, Nərimanov rayonu 30, Əbrəqunus rayonu 30, Culfa rayonu 4, Ordubad rayonu 20, Parağa rayonu 15, Aza rayonu 11 kəndi əhatə etmiş, muxtar respublikada cəmi 227 yaşayış məntəqəsi olmuşdur. Həmin yaşayış məntəqələrindən Əskikənd, Bulaqbaşı, Salahabad, Aralıq bəy, Aralıq xan, Saraclı-Daşarx, Örtülü Təzəkənd (Baş Noraşen rayonu), Billəva, Vayxır, Parçı, Yalqızağac (Qıvraq rayonu), Sust, Lizbirt (Cəhri rayonu), Sürəməlik, Naxışnərgiz, Nərimanabad (Tumbul rayonu), Paradaşt, Haçaparaq, Baş Anzır, Orta Anzır, Dib Anzır, Korəhmər, Zoğala (Əbrəqunus rayonu), Dərgəməlik, Tilləк (Parağa rayonu), Der (Aza rayonu) və sair kimi kəndlərin adları tədricən passiv toponimik fonda keçmişdir.

1933-cü ildə respublikanın rayonlaşdırılmasının yekunlarına dair Azərbaycan Sosialist Şura Cümhuriyyəti Xalq Təsərrüfat Uçot İdarəsi tərəfindən hazırlanmış “ASŞC-Nax.SŞC-MDQO inzibati bölünüşü” adlı məlumat toplusu öz zənginliyi və dəqiqliyi ilə diqqəti cəlb edir. Topluda Azərbaycan, o cümlədən Naxçıvan ərazisinin yenidən rayonlaşdırılması, rayonlara daxil olan kəndlər, təsərrüfatların və əhalinin sayı, etnik tərkibi, kolxoz və sovxoz adları, kənd şuraları və oraya daxil olan kəndlərin adları sistemli şəkildə əksini tapmışdır. Burada Naxçıvan ərazisində mövcud olan 242 yaşayış məntəqəsi və 71 kolxoz adı qeydə alınmışdır ki, həmin coğrafi adların elmi-linqvistik baxımdan tədqiqi vacib məsələlərdən biridir.

Bir faktı da qeyd edək ki, 1930-cu illərdə xalqımıza, milli mənəviyyatımıza, maddi-mədəniyyət abidələrimizə, görkəmli şəxsiyyətlərimizə qarşı törədilən repressiya bir çox tarixi adlarımızın da unutdurulması, sıradan çıxarılması ilə nəticələnmişdir. Məsələn, Naxçıvan MİK-nın IV sessiyasının (IX çağırış, 23 mart 1936-cı il) iclas protokoluna əsaslanıb deyə bilərik ki, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan MSSR-də yaşayış-məntəqə adlarının dəqiqləşdirilməsi ilə əlaqədar 238 yaşayış-məntəqə adından 48-nin adının dəyişdirilməsi haqda qərar qəbul etmiş, beləliklə də, tarixi adların sıradan çıxarılması üçün “dövlət əhəmiyyətli tədbirlər görülmüşdür”. Bu qərar ancaq kağız üzərində qalmış, həyata vəsiqə ala bilməmiş, xalq tərəfindən qəbul olunmamışdır.

*(Ardı var)*

***Adil BAĞIROV***
***AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, AMEA-nın müxbir üzvü***

*“Naxçıvan tarixi”ndən*

## Naxçıvan qədim dövrdə

***Arxeoloji abidələr Naxçıvanın qədim və orta əsr tarixinin öyrənilməsi üçün dəyərli mənbədir. Bu abidələr Naxçıvanın qədim tarixini Daş dövründən başlayaraq izləməyə imkan verir. Muxtar respublika ərazisində qədim Daş dövrünə aid bir neçə daş alət və nukleuslar vardır. Belə tapıntılar Ovçular təpəsindən və Şahtaxtı ərazisindən aşkar olunmuşdur. Naxçıvanda Daş dövrünün geniş tədqiqatlarla öyrənilmiş abidəsi Qazma mağarasıdır.***

Daş dövrünün sonrakı mərhələsi kifayət qədər tədqiq edilməmişdir. Babək rayonunda yerləşən I Kültəpə abidəsinin alt təbəqəsi Neolit dövrünə aid edilmişdir. 2011-ci ildə aparılan araşdırmalar zamanı Sədərək yaşayış yerindən Neolit dövrünə aid daş toxa aşkar olunmuşdur. Naxçıvanda istehsal təsərrüfatının formalaşması və inkişafı, qədim mədəniyyətlərimizin Şərq ölkələri ilə əlaqələrinin öyrənilməsi üçün Neolit və Eneolit abidələrinin tədqiqinin olduqca mühüm əhəmiyyəti vardır. İndiyədək arxeoloji qazıntılarla yalnız I Kültəpə abidəsində Neolit dövrünün sonu və Erkən Eneolit mədəniyyətinə aid maddi-mədəniyyət qalıqları öyrənilmişdir. Sirab ərazisində aparılan araşdırmalar zamanı xeyli Eneolit abidəsinin aşkar olunması bu dövrə aid abidələrin Naxçıvanda geniş yayıldığını göstərdi. Onu da qeyd etmək lazımdır ki, Cənubi Qafqazda qədim əkinçilik mədəniyyətlərinin öyrənilməsi məhz Naxçıvan Kültəpəsindən başlamışdır.

Eneolit dövrü abidələri arasında yalnız I Kültəpə və Ovçular təpəsi geniş qazıntılarla öyrənilmişdir. Araşdırmalar e.ə.VI-IV minilliklərdə Naxçıvanda məskunlaşan qədim tayfaların məişətini, həyat tərzini, Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrini öyrənmək üçün zəngin material vermişdir. I Kültəpənin Eneolit təbəqəsindən aşkar olunan Xalaftipli boyalı qab Naxçıvanın qədim sakinlərinin Şimali Mesapotamiya ilə iqtisadi mədəni əlaqələrini göstərir. Bir qrup tədqiqatçılar arxeoloji materiallara əsaslanaraq müəyyən əhali qrupunun Şimali Mesapotamiyadan Naxçıvana gəldiyini söyləmişdir. Eneolit abidələrinin tədqiqi Mesapotamiyada formalaşan Ubeyd mədəniyyəti ilə olan əlaqələri də öyrənməyə imkan verir. Bu mədəniyyətin təsiri ilə Naxçıvanda boyalı keramika məmulatı ortaya çıxmışdır. Ovçular təpəsində bir ədəd idxal malına da rast gəlinmişdir. Ovçular təpəsindən, Xələc, Şortəpə və Uçan Ağıldan aşkar olunan boyalı keramikanın əksəriyyəti yerli istehsalın məhsuludur. Bu isə bəzi tədqiqatçıların iddia etdiyi kimi, Eneolit mədəniyyətinin gətirilmədiyini, yerli istehsalın məhsulu olduğunu göstərir. Ovçular təpəsində aparılan araşdırmalar Eneolit dövrünün sonunda Naxçıvanda yaşayan tayfaların iqtisadi-mədəni və sosial həyatında baş verən dəyişiklikləri izləmək üçün dəyərli nəticələr vermişdir. Araşdırmalar bu dövrdə ibtidai icma quruluşunun dağılma ərəfəsində olduğunu göstərir.

Arxeoloji tədqiqatlar zamanı Naxçıvan ərazisində Erkən Tunc dövrünə aid I Kültəpə, II Kültəpə, Ovçular təpəsi, I Maxta Kültəpəsi, II Maxta Kültəpəsi, Şortəpə, Sədərək və onlarla digər yaşayış yerləri, Dizə nekropolu, Qarabulaq nekropolu, Plovdağ nekropolu və Xornu nekropolu kimi qəbir abidələri tədqiq edilmişdir. Erkən Tunc dövrü abidələrindən aşkar olunmuş arxeoloji mədəniyyət Kür-Araz mədəniyyəti adlandırılmışdır. Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrinin tədqiqi bu mədəniyyətin mənşəyi, xronologiyası və inkişaf xüsusiyyətləri ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirmişdir.

***Mənbə: “Naxçıvan tarixi” çoxcildliyinin I cildi***

*Dünən Babək Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Nəzərabad kəndində ətraf mühitin mühafizəsinə, təbii qaz və elektrik enerjisindən düzgün istifadə qaydalarına həsr olunmuş tədbir keçirilib.*

olunması ölkəmizdə, eləcə də muxtar respublikamızda enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində hüquqi və iqtisadi nöqteyi-nəzərdən mühüm amil kimi səciyyələndirilir.

## Prokurorluq orqanları hüquqi maarifləndirmə tədbirlərini davam etdirir

Nəzərabad kənd sakinlərinin iştirak etdiyi tədbirdə Babək rayon prokurorunun müavini, kiçik ədliyyə müşaviri Kənan Seyidov "Təbii qazın, elektrik və istilik enerjisinin talanması iqtisadiyyatımıza böyük zərbədir" mövzusunda çıxış edərək bildirib ki, enerji resurslarından səmərəli şəkildə istifadə edilməsi vacib məsələlərdən biridir. Fiziki və hüquqi şəxslər tərəfindən məişətdə və müxtəlif istehsal sahələrində istifadə edilən təbii qazın, elektrik və istilik enerjisinin talanmasına qarşı mübarizənin hüquqi əsasları müvafiq normativ-hüquqi aktlarla tənzimlənir. Enerji növlərindən səmərəli istifadə olunması ölkəmizdə, eləcə də muxtar respublikamızda enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində hüquqi və iqtisadi nöqteyi-nəzərdən mühüm amil kimi səciyyələndirilir.

Babək rayon prokurorunun böyük köməkçisi, II dərəcəli hüquqşünas Vüqar Hüseynov "Ətraf mühitin mühafizəsi sağlam həyatın başlıca amillərindəndir" mövzusunda çıxış edərək bildirib ki, insan sağlamlığında ətraf mühitin təmizliyi əsas amillərdəndir. Son illər ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən istifadəyə dair bir sıra normativ-hüquqi aktlar qəbul edilib, təbiətin qorunması və sağlamlaşdırılması sahəsində mühüm addımlar atılıb. Ətraf mühitin mühafizəsi ətraf mühitdə təbii mövcud olan maddi varlıqların qorunub saxlanılmasıdır. Əgər təbiətə ziyan vurulursa, o zaman ətraf mühitdə mövcud olan digər təbii varlıqlara da böyük ziyan dəymiş olur. Bu ziyan nəticəsində bitkilərin, heyvanların, su obyektlərinin, bioloji sərvətlərin məhv olması, atmosferin çirklənməsi halları baş verir. Qeyd olunub ki, muxtar respublikamızda ekoloji tarazlığın qorunub saxlanılması üçün mühüm addımların atılmasına baxmayaraq, bəzən ətraf mühitə biganə yanaşanlara da rast gəlinir. Təbiəti qorumaq ümumxalq işi olduğundan bu sahədə vətəndaşlar həmrəy olmalı, xoşagəlməz hallarla mübarizə tədbirlərində müvafiq qurumlara, o cümlədən hüquq-mühafizə orqanlarına kömək etməlidirlər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

✍ **Səbuhi HƏSƏNOV**

## Ümumtəhsil məktəbləri və uşaq bağçalarında flüoroqrafik müayinələr aparılır

Muxtar respublikamızda yoluxucu xəstəliklərlə mübarizə işi səhiyyənin prioritet sahələrindən biridir. Körpələrin və uşaqların xəstələnmə və ölüm səviyyəsinin azaldılmasına yönəldilmiş immunprofilaktikaya dair çox vacib proqramların həyata keçirilməsi də bunu təsdiq edir. Nəticədə, bir sıra xəstəliklərin yayılma səviyyəsi xeyli azalıb, bir neçə infeksion patologiya isə tam ləğv olunub.

Hazırda bu sahədə tədbirlər uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin cari il üçün iş planına uyğun olaraq, ümumtəhsil məktəblərinin müəllim və 9-11-ci siniflərində təhsil alan şagirdləri arasında, eləcə də uşaq bağçalarında ağciyər vərəminin profilaktikası və ilkin vərəmin vaxtında aşkar edilməsi məqsədilə rentgen-flüoroqrafik müayinələr aparılır.

Yanvarın 26-da start verilən aksiya Naxçıvan şəhərindəki 5 nömrəli uşaq bağçasını və 4 nömrəli tam orta məktəbi əhatə edib. Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkim və orta tibb işçiləri uşaq bağçasında çalışan 32 nəfəri, 4 nömrəli tam orta məktəbdə isə 48 şagirdi, müəllim heyətini səyyar rentgen-flüoroqrafik müayinədən keçiriblər. Vərəmə yoluxma halları aşkar edilməyib.

Müayinələrdən sonra ftiziatrların iştirakı ilə "Uşaqlarda vərəm intoksikasiyası" mövzusunda səhiyyə maarifi işi aparılıb, vərəm haqqında buklet və kitabçalar paylanılıb.

Rentgen-flüoroqrafik müayinələr hər ay bir məktəb və bir uşaq bağçasını əhatə etməklə ilboyu davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanda Avropa Oyunlarının tanıtımı başa çatıb



"Bakı-2015" Avropa Oyunlarının tanıtımı məqsədilə Naxçıvan Muxtar Respublikasında olan "Bakı-2015" Avropa Oyunlarının Əməliyyat Komitəsinin üzvləri dünən tanıtım kampaniyasına yekun vurub. Naxçıvan şəhəri və muxtar respublikanın bütün rayonlarında tədbirlər keçirən əməliyyat komitəsinin üzvləri son olaraq Ordubad, Culfa, Şahbuz və Babək rayonlarında görüşlər təşkil ediblər. Komitə üzvləri idman federasiyalarının bu rayonlarda fəaliyyət göstərən idman bölmələri ilə tanış olublar. Keçirilən tədbirlərdə idmançılara və müəllimlərə Avropa Oyunlarına həsr edilmiş videoçarx nümayiş etdirilib, tədbir iştirakçılarına "Bakı-2015" Avropa Oyunlarında geniş məlumatlar verilib, "Bakı-2015" Avropa Oyunlarının atributları əks olunan çanta və papaqlar idmançılara hədiyyə edilib.

Qeyd edək ki, "Bakı-2015" Avropa Oyunları Əməliyyat Komitəsinin üzvləri sonuncu gün "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi və Möminə xatın türbəsini ziyarət edib, Batabat yaylağını gəziblər.

**Xəbərlər şöbəsi**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Dövlət Miqrasiya Xidməti tərəfindən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması məqsədilə hansı sənədlər tələb olunur və hansı müddətə qeydiyyata alınırlar?*

***Cavab:*** Bunun üçün əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qaldığı yerin (mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və ya digər belə ictimai yerlər) müdiriyyəti və ya mənzilin, digər yaşayış sahəsinin sahibi (qəbul edən tərəf) əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ölkəyə gəldiyi vaxtdan 10 gün ərzində həmin şəxsin olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketi və onun pasportunun (digər sərhədkeçmə sənədinin) surətini Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə poçt, elektron poçt ***(miqrasiya@nakhchivan.az),*** internet informasiya saytı ***(www.miqrasiya.nakhchivan.az)*** vasitəsi ilə və ya şəxsən təqdim etməlidir.

Ərizə daxil olduqdan sonra Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti dərhal əcnəbi və ya vətəndaşlığı olmayan şəxs barədə məlumatları Vahid Miqrasiya Məlumat Sisteminə daxil etməklə onları olduğu yer üzrə qeydiyyata alır və bu barədə 1 iş günü ərzində müraciət edən şəxsə məlumat verir.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aşağıdakı müddətə qeydiyyata alınırlar:

*– viza əsasında gələnlər – vizada göstərilən qalma müddətinə*

*– viza tələb olunmayan qaydada gələnlər – 90 gün müddətinə*

Əcnəbinin və ya vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması üçün dövlət rüsumu ödənilmir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

## Uşaqları idmana necə həvəsləndirək?

***Azərbaycanda idmanın bir çox növlərinin yaranma tarixi çox-çox qədimlərə gedib çıxır. Qədim yazılı abidələrə, ədəbi-tarixi mənbələrə, folklor, eləcə də orta əsr bədii yaradıcılıq nümunələrinə söykənərək demək olar ki, qədim Azərbaycanda güləş, oxatma, qılıncoynatma, nizəatma, atçapma, çovqan, sürpapaq, baharbənd, daşqaldırma, miloynatma, şahmat və digər idman növləri geniş yayılmışdır. Bu idman növləri zaman keçdikcə daha da püxtələşərək professional idman növlərinə çevrilmişdir. Təbii ki, bu prosesdə dövlətin idmanın inkişafına qayğısını xüsusi qeyd etmək lazımdır. Xüsusilə bu sahənin gənclər arasında geniş yayılması idmanın kütləviləşməsi üçün əsas nüanslardan biridir.***

### *Artan maraq*

İdman sahəsində uğur qazanmaq, gələcək karyerasını peşəkar səviyyədə qurmaq istəyən yeniyetmə və gənclər məşğul olmaq istədikləri idman növünə müəyyən olunmuş yaşlardan başlamalıdırlar. Bunun üçün də onları bu sahəyə həvəsləndirmək əsas şərtdir. Bəs uşaqları idmana həvəsləndirmək, bu sahəyə marağı artırmaq üçün hansı yollardan istifadə etmək lazımdır?

Görkəmli idman mütəfəkkirləri, pedaqoqlar yetişməkdə olan nəslin mənəvi kamilliyində, fiziki yetkinliyində idmanın kollektiv növlərinin, xüsusən oyunların müstəsna əhəmiyyətə malik olduğunu dəfələrlə qeyd ediblər. Bunun üçün keçirilən oyunların yeri və şəraiti də buna cavab verməlidir. Əks təqdirdə, bu sahənin seçimində tərəddüd yaranar. Həmçinin keçiriləcək tədbirlər zamanı gigiyena məsələsinə də xüsusi diqqət ayrılmalıdır.

Aparılan araşdırmalardan sonra məlum olub ki, uşaqları idmana cəlb etməyin ən asan yolu onlara bu sahəni əyləncəli oyunlarla sevdirməkdir. Məsələn, hər kəsə məlumdur ki, üzgüçülük uşaqların sağlamlığında, hərtərəfli fiziki inkişafında olduqca böyük rol oynayır. Məhz buna görə uşaqların çimərliklərə getmələrinə, üzgüçülüklə, müxtəlif su idmanı növləri ilə məşğul olmalarına çalışılmalı, məktəbdə və yay düşərgələrində bu idman növü barədə onlara geniş məlumat verilməlidir. Digər tərəfdən, uşaqların bədən tərbiyəsi və idmana həvəsləndirilməsi yollarından biri də təbiətin qoynunda təmiz və mənzərəli yerlərdə gəzintilərdə olmaqdır. Muxtar respublikamızda mənzərəli və səfalı yerlərin sayı çoxdur, onların əksəriyyətində belə düşərgələr təşkil etmək mümkündür. Bu cür tədbirlər, yürüşlər təkcə uşaqların və yeniyetmələrin sağlamlığına, fiziki inkişafına müsbət təsir göstərmir, eyni zamanda onların mənəvi tərbiyəsinin inkişafında da mühüm rol oynayır.

### *Ailənin rolu*

Uşağın sağlamlığı və fiziki inkişafının əsası, təməli ailədə qoyulur, onun fiziki inkişafı ailədə təşəkkül tapır. Ailədə əsası düzgün qoyulmuş fiziki tərbiyə uşaq və yeniyetmələrin fiziki hazırlığını yüksəltməklə, sağlamlığını möhkəmlətməklə yanaşı, onların təhsilinə, ictimai fəallıqlarına da müsbət təsir göstərir. Bu baxımdan uşaqların idmana həvəsləndirilməsi yolları, ailənin fiziki tərbiyə ilə bağlı tutduğu mövqe gündən-günə yenilənməlidir. Ümumiyyətlə, uşaqlarla aparılan tərbiyə işlərinin müvəffəqiyyəti onun planlı, məqsədyönlü həyata keçirilməsindən asılıdır.

İdman həm də orqanizmin, bədənin fiziki baxımdan tərbiyəsi üçün edilməlidir. İnsan hansı yaşda idmana başlayarsa, mütləq sağlamlıq müayinəsindən keçməlidir. Ortopedik və travmatoloji mütəxəssislər müəyyən ediblər ki, məşq edən insanın əzələ və skelet sisteminin seçilən idmanı etməyə uyğun olub-olmadığı özünü 3-6 aydan sonra büruzə verir ki, bu da böyük fəsadlar yarada bilər. Mütəxəssislərin fikrincə, yaşına və fiziki qabiliyyətinə uyğun idman fəaliyyəti uşaqların sağlam bir həyat yaşayacaqlarının qarantıdır. Məsələn, ailələr 14 yaşından kiçik uşaqların ağırlıq tələb edən idman növləri ilə məşğul olmalarına icazə verməməlidirlər. Çünki əzələ qüvvətindəki ən böyük artım oğlanlarda 6-8, 13-14, qızlarda isə 4 və 9 yaşlarında daha sürətli olur. Bu dövrlərdə xüsusi qüvvə tələb edən məşqlər qəti şəkildə edilməməlidir.

Alimlər müəyyən ediblər ki, uşaqlıq dövründə idmana başlayan kəslərlə irəli yaşda idman etməyə başlayanlar arasında fiziki, sosial, ruhi və şəxsiyyət inkişafına qədər hər sahədə fərqlər mövcuddur. Uşaqlıq dövründə edilən idman daha çox oyuna söykənən idman növü olmalıdır. Uşaqlar ağırlığa söykənən idmanla məşğul olmamalıdır. Uşaqlar inkişaf mərhələsində olduğu üçün qüvvət idmanları onlar üçün zərərlidir. Çünki uşaqlıq dövründə sümüklər hələ inkişafa açıqdır, ürək tutumu fərqlidir, karbohidrat anbarı yetkinlərə görə daha azdır.

Uşağın peşəkar idmançı olması əsas hədəfdirsə, əvvəlcə valideyn, həmçinin uşağın özü qarşıdakı yolun çox çətin olduğunu qəbul etməlidir. Yox, əgər məqsəd uşağın peşəkar idmana yönəlməsini təmin etmək deyilsə, o zaman uşaq hər yaşda istədiyi idmana başlaya bilər. Ancaq burda əhəmiyyətli olan uşağa uyğun bir proqramın seçilməsi və xüsusi məşqlərə erkən dövrdə deyil, irəliləyən dövrdə başlanmasıdır.

***2-3 yaş.*** Qaçış və tullanma kimi təməl hərəkətlər etmək mümkündür. Bu səbəbdən qaçma, rəqsetmə, sudaoynama kimi oyunlar icra edilə bilər və təcrübəli insanların müşayiəti ilə gimnastika təhsili almaq olar.

***4-6 yaşda*** rəqs, üzmə, gimnastika, ipatlama və üçtəkərli velosiped sürmək kimi idmanlar idealdır.

***7-10 yaş.*** Gimnastika, futbol, basketbol, voleybol, velosiped, tennis və üzmə kimi idmanlarla əlaqədar təməl təhsilə istiqamətləndirmək dövrüdür.

***10 yaşdan sonra.*** Əvvəlki yaşlarda başladıqları idman növünü daha mütəşəkkil formada davam etdirmək, atletizm və güləşə başlama yaşıdır. Bir neçə il sonra isə güc tələb edən boks, taekvando və karate ilə məşğul olmaq təhlükəli deyil.

Bu amillərdən də vacib olanı isə valideynlər uşaqların ailə şəraitində fiziki hazırlığını artırmaq məqsədilə onların düzgün inkişafına, gün rejiminə, normal qidalanmalarına, yuxu və səmərəli istirahətlərinə diqqət yetirməlidirlər. Bütün bunların təlim və tərbiyə prosesinin, uşaqların bədən tərbiyəsi və idmana həvəsləndirilməsi yollarının müvəffəqiyyətlə həyata keçirilməsində böyük əhəmiyyəti var. Deməli, uşaqların idmana cəlb edilməsinə xidmət edən amillərdən biri ailədə bədən tərbiyəsi və idman mühitinin yaradılmasıdır.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Hüseynov Coşqun Habil oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 74**